Cəlil Məmmədquluzadə

# DANABAŞ KƏNDİNİN ƏHVALATLARI

qanun nəşriyyatı

Satirik şəkildə ümumiləşdirilmiş Danabaş kəndində faciə faciəni təqib edir. Son dərəcə inandırıcı, təbii axarda verilmiş həyat lövhələrində dünya nemətlərindən, vətəndaşlıq və şəxsiyyət azadlığından məhrum əlsiz-ayaqsızların hamısı "qəm dəryasına qərq olub": yoxsul kəndli Məmmədhəsən əmi də, arvadı və oğlu da, dul qadın Zeynəb də, oğlu Vəliqulu da…

Tədqiqatçıların fikrincə, Cəlil Məmmədquluzadə silsilə əsərlər yazmağı nəzərdə tutubmuş. Həmin əsərlər "Danabaş kəndinin əhvalatları" ümumi adı altında birləşəcəkmiş. Onlardan biri ("Eşşəyin itməkliyi") yazılıb, ikincisi ("Danabaş kəndinin məktəbi") yarımçıq qalıb. "Danabaş kəndinin əhvalatları" adı isə "Eşşəyin itməkliyi" əsəri üzərində qalıb və bu povest "Danabaş kəndinin əhvalatları" adı ilə məşhurlaşıb.

*Nağıl edibdi Lağlağı Sadıq.*
*Yazıya götürübdü qəzetçi Xəlil.*

Qəlbimdən gələn səs mənə çox zadlar öyrədir. Haman o səs pak və təmiz insafımın səsidir ki, hamıda o insaf var. Hər kəs guş-huş ilə onun buyurduğuna qulaq asıb, əmrinə əməl eləsə, çox sirlərdən agah olub, çox şeylər bilər.

*Sokrat*

## BİR YÜNGÜLVARI MÜQƏDDİMƏ

Mənim adım Xəlil və yoldaşımın adı Sadıqdı. Hər ikimiz Danabaş kəndində anadan olmuşuq. Mən özüm anadan olmuşam düz otuz il bundan irəli; yəni mənim otuz yaşım var. Yoldaşım Sadıq da, mən deyirəm, ancaq mən sində olar. Amma mən ondan bir az cavan görükürəm. Onun boyu ucadı, mənim boyum alçaqdı; amma mən ondan doluyam. O, çox qaradı və kosadı, amma mən ağımtıl və top saqqalam. Bir təfavütümüz ordadır ki, mən gözlük qoyuram, gözlərim çox zəifdi; amma yoldaşımın gözləri çox salamatdı. Bunun da səbəbi odur ki, mən əhli-savadam, yazı-pozu mənim gözümə ziyan eləyibdi.

Müxtəsər, biz hər ikimiz Danabaş kəndinin sakiniyik. Mənim sənətim qoltuqçuluqdu, yəni dörd-beş top çit qoltuğuma vurub, dolanıram öz kəndimizi, ya qeyri kəndləri, çit-mit satıb, bir tövr güzəranımı keçirirəm. Yoldaşımın sənəti baqqaldı, yəni bir daxmaya üç-dörd put duz, bir qutu kişmiş və dörd-beş

paçka maxorka tütünü qoyub satır və o da bu cür ruzgarını keçirir.

Vəssəlam, hər ikimiz Allah-taalanın kasıb bəndələrindənik.

Qərəz, başağrısı da olur, amma genə gərək deyim; çünki mən bilirəm ki, bu əhvalatı oxuyan rəfiqlərim artıq təəccüb edəcəklər, necə yəni qəzetçi Xəlil və lağlağı Sadıq? Pəs rəfiqlərimi intizarçılıqdan çıxarmaqdan ötrü genə gərək bir neçə söz ərz edəm; hərçənd başağrısı olur.

Mən deyirəm bütün Qafqaziyyə vilayətində bizim Danabaş kəndi kimi məzəli kənd yoxdu. Demirəm ki, pisdi, Allah eləməsin. Mən heç vaxt haqqı itirmərəm. Doğrudur, mən bir az incimişəm kəndimizdən; amma bu, kəndimizin pisliyinə dəlalət eləməz ki! İki yüz mənim kimi dılğır adam incisin bizim kənddən, bundan belə bizim kəndə genə pis demək haqdan kənar olar.

Yox, vallahi, billahi, bizim kənd çox yaxşı kənddi. İnşallah, əgər mənim ərzimə axıra kimi səbr ilə qulaq versən, özün görərsən ki, bizim kənd pis kənd deyil.

Hələ pisliyi, yaxşılığı qalsın kənarda. Sözüm orda deyil; sözüm orasındadı ki, bizim kənddə şəxs yoxdu ki, onun bir ayaması olmasın.

Bizlər ayama deyirik. Bilmirəm başa düşdünüz, ya yox? Ayama, yəni ləqəb.

Hələ burdan bir haşiyə çıxaq.